# Qarabağ və Şərqi Zəngəzurun sürətli bərpası dövlətimizin iradəsinin göstəricisidir




**Prezident İlham Əliyev daim çıxışlarında Qarabağın Azərbaycanın əbədi və əzəli torpağı olduğunu və xalqımızın bundan sonra da hər zaman bu ərazilərdə sülh, barış, təhlükəsiz şəraitdə yaşayacağını əminliklə bəyan edir. Bu mesajlar həqiqəti hələ də dərk etməyən və eşitməyənlər üçün həm də xəbərdarlıq kimi diqqət çəkir. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyevanın oktyabrın 19-da Cəbrayıl və Qubadlı rayonlarına səfərləri də bunun bariz ifadəsidir.**

Yeri gəlmişkən, qəsbkar Qarabağ və Şərqi Zəngəzurda uzun bir zaman ərzində şəhər və kəndlərimizi yer üzündən silməklə, bütün mədəni və dini abidələrimizi dağıtmaqla həmin torpaqları urbisid və kultursid nümunəsinə çevirib. Ölkə rəhbəri çıxışlarının birində bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda barbarlıqla üzləşməsinə dünyanın heç bir yerində rast gəlinmədiyini, 9 şəhər və yüzlərlə kəndimizin tamamilə xaraba qoyulduğunu, Ağdam kimi böyük bir şəhərin "Qafqazın Xirosiması" kimi tanındığını, Füzuli düşməndən təmizləndikdən sonra bu şəhərdə Azərbaycan Ordusunun bayraq sancmağa bir tikili olsun belə tapa bilmədiyini xatırladıb.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri plan üzrə aparılır. Artıq yaşayış binalarının inşası sürətlə icra edilir. Ağalı kəndi məskunlaşdırılır, yeni yaradılacaq yaşayış sahələrinin yerləri müəyyənləşdirilir. Həmçinin tarixi abidələrin bərpası hazırlanan cədvəl üzrə həyata keçirilir.

Bir sözlə, qarşıya qoyulan əsas vəzifə düşməndən təmizlənən əraziləri tezliklə dünyanın ən abad, ən gözəl bölgələrindən birinə çevirməkdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu bölgə nəinki Azərbaycan, o cümlədən, dünya üçün nümunəvi bölgə olacaq. Bu coğrafiyada bütün layihələr planlı şəkildə həyata keçirilir. "Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tenderlər prosedur qaydalarla aparılmalıdır, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır" – deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı möhtəşəm quruculuq layihələrinin təməlqoyma və açılış mərasimlərində iştirak etməklə, eyni zamanda, bu işlərin icrasına şəxsən özü nəzarət edir. Ölkə rəhbəri bununla həyata keçirilən işləri diqqət mərkəzində saxlamaqla yanaşı, həm də onilliklər boyu bu torpaqlara göz dikmiş erməni vandallarına və onların havadarlarına gözdağı verir.

Dövlət başçısı Şərqi Zəngəzurda tikinti-quruculuq, bərpa layihələrinin sürətlə aparılması üçün davamlı tədbirlər həyata keçirir. Ölkə rəhbərinin bu il sentyabrın 7-də "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında" sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, həmin sərəncama əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan rayonların işğaldan azad edilmiş ərazilərində şəhər, kənd və qəsəbələrin tikintisi, təmiri, həmçinin bərpası işlərinin layihələndirilməsi, həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Hazırda düşməndən təmizlənən Şərqi Zəngəzurun yaşayış sahələrində ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər sürətlə gerçəkləşdirilir. Bu çərçivədə görülən layihələr isə həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 19-da Cəbrayıl və Qubadlı rayonlarına səfərləri zamanı Şərqi Zəngəzurun yenidən abadlaşdırılması istiqamətində sürətlə reallaşdırılan tədbirlər, aparılan nəhəng quruculuq işləri dövlətimizin, onun başçısının güc və iradəsinin göstəricisi kimi diqqət çəkdi.

Xatırladaq ki, həmin gün Prezident İlham Əliyev Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak edib. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış oldular. Ölkə rəhbəri və birinci xanım daha sonra reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 ceyranın buraxılması mərasimində iştirak etdilər.

Bütün bunlarla yanaşı, dövlətimizin başçısı Cəbrayıl Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, 330/110 kilovoltluq beynəlxalq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında aparılan tikinti işləri ilə tanış olub.

Prezident İlham Əliyev Qubadlı rayonunda "Bərgüşadçay" və "Zabuxçay" su anbarlarının layihələri ilə tanış olduqdan sonra Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin və Qubadlıda İşğal və Zəfər muzeylərinin təməlqoyma mərasimində iştirak edib.

Sonda dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı təqdim olunub. Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyevin bu məsələdə vurğuladığı əsas məqamlardan biri işlərin kortəbii yox, planlı və sistemli şəkildə aparılması, bərpa ediləcək hər bir kəndin belə, Baş planının olması ilə bağlıdır. Sözügedən prioritetlə bağlı ölkə rəhbərinin aşağıdakı fikirləri də bunun bariz ifadəsidir: "Azad edilmiş bütün torpaqlarda görüləcək işlər ancaq Baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq".

Azərbaycan Prezidenti və birinci xanım səfər çərçivəsində Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə də tanış oldular. Bildirilib ki, Zəngilan aeroportunda uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib.

Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**